# MARKETS AS A COMPONENT OF THE URBAN PHENOMENON (BASED ON MATERIALS FROM AZERBAIJANI TOWNS)

**Shohrat Ibadov**[1]

**UDC:** 711.4/.5(479.24)(091):339.174
**LBC:** 63.3(5Aze)4:85.118
**HoS:** 123
**DOI:** 10.33864/2790-0037.2025.v6.i5.220-231

**Keywords:**

Town,
Crafts,
Trade,
Tabriz,
Baku,
Caravansary

**ABSTRACT**

Although the first towns in the world were founded in the fertile river valleys (Mesopotamia, Egypt, India, etc.) around the 4th-3rd millennium BC, their intensive development and acquisition of self-governing status coincide with the early medieval ages. It was during this period that cities began to be surrounded by defensive fortresses, acquired a three-part (inner fortress, shehristan, and rabat (fortified castle)) planning structure, acquired an all-Muslim appearance with their characteristic features and new types of monumental buildings, and eventually transformed from small fortified towns into large administrative, cultural, craft, and trade centers. Some researchers even highlight the craft factor, which inevitably led to the emergence of trade and the markets organically connected with it, among the reasons for the emergence of towns.

Markets, which have also played an important role in the structure of historical Azerbaijani towns, have from time to time performed a coordinating function between towns, villages and individual regions, have given impetus to the creation and expansion of money circulation, stimulated production, and have become an important place where socio-cultural relations and communication (communication, conversation and exchange of ideas) are developed. By eliminating the local, closed nature of the economy, they have offered a convenient platform for international trade and, as a result, have become the most important element of the complex urban organism, one of the most important components of the architectural and planning composition of cities.

[1] PhD in History,
PhD candidate at the Institute of History and Ethnology named after A. A. Bakikhanov, Azerbaijan National Academy of Sciences; Baku, Azerbaijan
E-mail: shibadov@gmail.com
https://orcid.org/0009-0009-9665-4431
**To cite this article:** Ibadov, Sh. [2025]. Markets as a Component of the Urban Phenomenon (Based on Materials from Azerbaijani Towns). *History of Science journal*, *6*(5), pp.220-231.
https://doi.org/10.33864/2790-0037.2025.v6.i5.220-231

***Article history:***
*Received: 11.10.2025*
*Revised: 12.11.2025*
*Accepted: 01.12.2025*
*Published: 15.12.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

# BAZARLAR ŞƏHƏR FENOMENİNİN KOMPONENTİ KİMİ (AZƏRBAYCAN ŞƏHƏRLƏRİNİN MATERİALLARI ƏSASINDA)

**Şöhrət İbadov**[1]

**UOT:** 711.4/.5(479.24)(091):339.174
**KBT:** 63.3(5Aze)4:85.118
**HoS:** 123
**DOI:** 10.33864/2790-0037.2025.v6.i5.220-231

**Açar sözlər:**

Şəhər,
Sənətkarlıq,
Ticarət,
Təbriz,
Bakı,
Karvansara

## ANNOTASİYA

Dünyada ilk şəhərlər təxminən eramızdan əvvəl IV - III minilliklərdə, münbit çay vadilərində (Mesopotamiya, Misir, Hindistan və s.) yaransa da, onların intensiv inkişafı və özünüidarətmə statusu qazanması Erkən Orta əsrlər dönəminə təsadüf edir. Məhz bu dövrdə şəhərlər müdafiə qalaları ilə əhatə olunmağa başlanmış, üç hissəli (iç qala, şəhristan, rabad) planlaşdırma quruluşu qazanmış, öz xarakterik xüsusiyyətləri və yeni tipli monumental tikililəri ilə ümummüsəlman görkəmi əldə etmiş, nəticə etibarilə kiçik istehkam şəhərlərindən iri inzibati, mədəniyyət, sənətkarlıq və ticarət mərkəzlərinə çevrilmişlər. Bəzi tədiqatçılar hətta şəhərlərin meydana gəlməsini şərtləndirən səbəblər sırasında ticarəti və onunla üzvi surətdə bağlı olan bazarların meydana gəlməsini labüd edən sənətkarlıq amilini ön plana çıxarırlar.

Tarixi Azərbaycan şəhərlərinin quruluşunda da mühüm yer tutmuş bazarlar, zaman-zaman şəhərlə kənd və ayrı-ayrı bölgələr arasında əlaqələndirici funksiya yerinə yetirməklə, pul dövriyyəsinin yaranmasına və genişlənməsinə təkan vermiş, istehsalı stimullaşdırmış, sosial-mədəni münasibətlərin və ünsiyyətin (xəbərləşmə, söhbət və fikir mübadiləsi) cilalandığı mühüm bir məkana çevrilmişlər. Onlar iqtisadiyyatın lokal, qapalı xarakterini aradan götürməklə, beynəlxalq ticarətə əlverişli platforma təklif etmi və nəticə etibarilə, mürəkkəb şəhər orqanizminin ən vacib elementinə, şəhərlərin memarlıq və planlaşdırma kompozisiyasının ən mühüm tərkib hissələrindən birinə çevrilmişlər.

[1] Tarix üzrə fəlsəfə doktoru,
AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun dissertantı; Bakı, Azərbaycan
E-mail: shibadov@gmail.com
https://orcid.org/0009-0009-9665-4431
**Məqaləyə istinad:** İbadov, Ş. [2025]. Bazarlar Şəhər Fenomeninin Komponenti kimi (Azərbaycan şəhərlərinin materialları əsasında). *History of Science jurnalı*, *6*(5), səh.220-231.
https://doi.org/10.33864/2790-0037.2025.v6.i5.220-231

***Məqalənin tarixçəsi:***
*Daxil olub: 11.10.2025*
*Yenidən baxılıb: 12.11.2025*
*Təsdiqlənib: 01.12.2025*
*Dərc olunub: 15.12.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

# РЫНКИ КАК КОМПОНЕНТ ГОРОДСКОГО ФЕНОМЕНА (НА ОСНОВЕ МАТЕРИАЛОВ АЗЕРБАЙДЖАНСКИХ ГОРОДОВ)

**Шохрат Ибадов**[1]

**УДК:** 711.4/.5(479.24)(091):339.174
**ББК:** 63.3(5Азе)4:85.118
**HoS:** 123
**DOI:** 10.33864/2790-0037.2025.v6.i5.220-231

**Ключевые слова:**

Город,
Ремесла,
Торговля,
Тебриз,
Баку,
Караван-сарай

## АННОТАЦИЯ

Хотя первые города в мире были основаны в плодородных речных долинах (Месопотамия, Египет, Индия и др.) примерно в 4-3 тысячелетии до н.э., их интенсивное развитие и обретение самоуправления совпадают с ранним Средневековьем. Именно в этот период города начали окружаться оборонительными крепостями, приобрели трехчастную (внутренняя крепость, шехристан и рабат) планировочную структуру, приобрели обще-мусульманский облик со своими характерными чертами и новыми типами монументальных зданий и в конечном итоге превратились из небольших укрепленных городов в крупные административные, культурные, ремесленные и торговые центры. Некоторые исследователи даже выделяют среди причин возникновения городов ремесленный фактор, который неизбежно привел к появлению торговли и органично связанных с ней рынков.

Рынки, игравшие важную роль в структуре исторических азербайджанских городов, время от времени выполняли координирующую функцию между городами, селами и отдельными регионами, давали толчок созданию и расширению денежного обращения, стимулировали производство и стали важным местом, где совершенствовались социально-культурные связи и коммуникация (общение, разговоры и обмен идеями). Устраняя локальный, замкнутый характер экономики, они предоставляли удобную платформу для международной торговли и, как следствие, стали важнейшим элементом сложного городского организма, одним из важнейших компонентов архитектурно-планировочной композиции городов.

[1] Кандидат философии по истории,
Докторант Института истории и этнологии имени А. А. Бакиханова Национальной академии наук Азербайджана; Баку, Азербайджан
E-mail: shibadov@gmail.com
https://orcid.org/0009-0009-9665-4431

**Цитировать статью:** Ибадов, Ш. [2025]. Рынки как компонент городского феномена (На основе материалов Азербайджанских городов). *Журнал History of Science*, 6(5), с.220-231.
https://doi.org/10.33864/2790-0037.2025.v6.i5.220-231

***История статьи:***
*Поступила: 11.10.2025*
*Переработана: 12.11.2025*
*Принята: 01.12.2025*
*Опубликована: 15.12.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

## 1.Giriş

Tarixi-arxeoloji mənbələr sübut edir ki, dünyada ilk şəhərlər təxminən eramızdan əvvəl IV - III minilliklərdə, münbit çay vadilərində (Mesopotamiya, Misir, Hindistan və s.), məbədlər, qalalar və ticarət yolları ətrafında meydan gəlmişdir. Orta əsrlərdə onlar sənətkarlıq və ticarət mərkəzlərinə çevrilmiş və tədricən özünüidarəetmə statusu qazanmışlar. XIX əsrin sənaye inqilabı şəhərlərin genişlənməsinə, şəhərətrafı ərazilərin yaranmasına və əhalini sıx məskunlaşdığı müasir aqlomerasiyaların formalaşmasına gətirib çıxarmışdır. Şəhərləşmə prosesi sənətkarlığın və ticarətin inkişafı, ixtisaslaşmanın dərinləşməsi və urbanizasiyanın güclənməsi ilə müşaiyət olunmuşdur.

Zaman-zaman tarixçilər, coğrafiyaşünaslar və daha sonra sosioloqlar şəhəri ən müxtəlif aspektlərdən xarakterizə etməyə çalışmış, onu funksional məqsədi (hərbi-siyasi, iqtisadi və qeyri-iqtisadi), təsərrüfat profili (sənətkarlıq və sənaye mərkəzi, liman, kurort və s.); inzibati əhəmiyyəti və s. baxımdan xarakterizə etməyə çalışmışlar.

Elmi ədəbiyyatda şəhərlər xronoloji baxımdan arxaik və qədim, orta əsrlər və müasir şəhərlərə təsnif edilir. Arxaik və qədim şəhərlərin formalaşması cəmiyyətin inkişafında baş vermiş müxtəlif proseslərlə - coğrafi mühit, kənd təsərrüfatı və qeyri-kənd təsərrüfatı istehsalında yeni texnologiyaların tətbiqi, mürəkkəb sosial təşkilatlanma və hakimiyyət strukturlarının yüksək inkişaf səviyyəsi ilə əlaqələndirilir. Bu zaman kənd təsərrüfatı əhali üçün yeganə gəlir mənbəyi olaraq qalır və şəhərlər onun inkişafının yadrosunu təşkil edirdi. Şəhərlərin ətrafında torpaq mülkiyyəti genişlənir, qul əməyi tətbiq olunur, sənətkarlıq, təhsil, memarlıq, rabitə, dövlət orqanları strukturları, maliyyə və gömrük orqanları və s. inkişaf edirdi [Бабюх & Кайсарова, 2014, с.418].

Araşdırmalar sübut edir ki, “şəhər” və şəhərlərin inkişaf tarixi anlayışlarının universal dərk edilməsi yalnız bu və digər yanaşmaların birləşdirilməsi yolu ilə mümkündür. Belə ki, hər hansı bir meyarın mütləqləşdirilməsi, qarşılıqlı olaraq yarımçıq və daha məhdud təriflərə gətirib çıxarır. Ona görə də, bu gün “şəhər” anlayışının ümumi konsepsiyası daha çox tarixi təcrübədən əldə edilən nəticələrlə deyil, sosioloji, hüquqi, iqtisadi və kulturoloji tədqiqatların kompleksi ilə müəyyən edilir [Бабюх & Кайсарова, 2014, с.418]. Burada ən böyük çətinlik qədim şəhərlərin mənşəyinin müəyyənləşdirilməsi zamanı ortaya çıxır. Həmin çətinlik də yalnız yaşayış məntəqəsinin təməl tarixini dəqiq müəyyən etmək üçün yazılı və ya arxeoloji artefaktların qıtlığı ilə bağlı deyildir. Problemin kökü tarixi-etnoqrafik və sosioloji tədqiqatlarda “şəhər” anlayışının mahiyyətinin müəyyənləşdirilməsi üçün ənənəvi olaraq fərqli meyarların əsas götürülməsindədir. Məsələn, görkəmli alman sosioloqu M.Vebere görə, şəhər - kəmiyyət göstəriciləri baxımından daha böyük yaşayış məntəqəsidir. Evlərin həddən artıq sıx olduğu bu yaşayış məntəqəsində sosioloji baxımdan cəmiyyət üçün xarakterik olan ümumi cəhət - qonşuların bir-biri ilə şəxsi tanışlığı istisnalıq təşkil edir. Lakin müəllif hesab edir ki, keçmişdə “şəhər” adlandırılan bütün yaşayış məntəqələri bu xüsusiyyətə malik olmamışdır [Вебер, 2017, с.9] və bu baxımdan bəhs edilən xüsusiyyət həlledici sayıla bilməz.

Məsələyə sırf iqtisadi mövqedən yanaşıldıqda, o zaman şəhər, sakinlərinin böyük çoxluğunun kənd təsərrüfatı ilə deyil, sənətkarlıqla məşğul olduğu yaşayış məntəqəsi kimi ortaya çıxır. Lakin M.Veberə görə, bu tipli istənilən yaşayış məntəqəsini şəhər kimi qələmə vermək də doğru deyildir. Çünki sakinləri qəbilə birlikləri şəklində yaşayan və faktiki irsən qalma bir istehsal sahəsi ilə məşğul olan yaşayış məntəqələrini - Asiya və Rusiyanın “sənaye kəndlərini” “şəhər” anlayışına aid etmək olmaz [Вебер, 2017, с.10]. Bəzi sənətkarlıq sahələrinin kəndlərdə də yayıldığını bu fikrə əlavə etsək, M.Veberin yanaşmasının doğru olduğunu görə bilərik.

Bazar komponenti də konkret yaşayış məskənini birmənalı şəkildə “şəhər” adlandırmağa imkan vermir. Çünki tarixən bazar funksiyasını yerinə yetirən dövri yarmarkalar “kənd” adlandırılan yaşayış yerlərində də fəaliyyət göstərmişdir [Вебер, 2017,

c.11], baxmayaraq ki, həmin yarmarkalar daimi deyil, ənənəvi olaraq ildə bir dəfə təşkil edilirdi. M.Veberin fikrincə, iqtisadi mənada "şəhər" haqqında yalnız o halda danışmaq olar ki, yerli əhali özünün gündəlik ehtiyaclarının əhəmiyyətli bir hissəsini məhz, yerli bazarda təmin etmiş olsun və eyni zamanda, satılan məhsulların mühüm hissəsini yerli və yaxın ətrafda yaşayan əhali tərəfindən gətirilən məhsullar təşkil etsin. Bu mənada hər bir şəhər "bazarı olan yaşayış məntəqəsi" hesab edilir. Başqa sözlə desək, o, iqtisadi mərkəz kimi yerli bazara malik olur və burada istehsalın mövcud ixtisaslaşması nəticəsində qeyri-şəhərli əhali kütləsi də sənətkarlıq və müxtəlif ticarət mallarına olan ehtiyaclarını ödəyir. Təbii ki, şəhər sakinlərinin özləri də istehsal olunmuş malları mübadilə edir və iqtisadi tələbatını təmin etmiş olurlar [Вебер, 2017, c.11].

Kənd yaşayış məntəqəsindən fərqli olaraq şəhərlərdə daimi fəaliyyət göstərən bazardan əlavə, uzaq diyarlardan olan tacirləri də cəlb edən dövri yarmarkalar da təşkil olunur. Beləliklə, şəhər, M.Veberin fikrincə, daimi bazarın və yarmarkaların fəaliyyət göstərdiyi yaşayış məntəqəsidir. Bu kontekstdə o, şəhərin istehlakçılar, istehsalçılar və ticarət şəhərləri olmaqla üç tipini qeyd etmişdir [Вебер, 2017, c.11-14].

Amerikalı alim və urbanist L.Mamferd isə şəhərin kooperativ birliklərin, tərbiyənin və təhsilin yaranmasına şərait yaradan və müdafiə olunan mühitin xüsusi forması kimi meydana gəldiyini vurğulayır. Onun nəzəriyyəsində "şəhər", insanın evə, əməkdaşlığa və qarşılıqlı yardıma doğru instinktiv istəyini təcəssüm etdirən ilkin müsbət fenomen kimi təqdim olunur [Mumford, 1938, p.294]. L.Mamferdin fikrincə, bütün şəhərlər kənd icmasından qaynaqlanmışdır. Buna görə də o, bütün şəhərləri "kənd başlanğıclı" hesab edərək, inkişaf prosesində onun aşağıdakı tipləri fərqləndirmişdir:

– *Yeopolis* - daimi yaşayış yerləri, daimi ərzaq ehtiyatlarının və daimi yaşayış sərhədlərinin olması ilə xarakterizə olunan kənd icması;
– *Polis* - bir neçə yaşayış məntəqəsinin birləşməsi, ya da ilkin yaşayış məntəqəsinin genişlənməsi nəticəsində yaranan erkən şəhər forması;
– *Metropolis* - strateji yeri, yüksək təhlükəsizliyi, bol içməli su ehtiyatları, ən uyğun ərazisi və nəqliyyat yolları olan şəhər. Bunun sayəsində o, çox sayda insanı özünə cəlb edir və "ana şəhər"ə çevrilir. "Metropolis" mədəniyyətlərin "kəsişmə nöqtəsidir";
– *Meqalopolis* – "mədəni genişlənmə dövrünün" müjdəçisidir;
– *Tiranopolis* - ağır xəstəlik vəziyyətində olan bir şəhərdir. Bura parazitizmin sosial və iqtisadi həyata nüfuz etdiyi bir yerdir. Orada "dövlət" orqanlarından başqa, bütün icma və mülkü həyatın orqanları məhv edilir. Siyasət isə bələdiyyə xəzinəsini talamaq üçün fraksiyalar arasında bir yarışa çevrilir [Mumford, 1938, p.285-290].

**2.Azərbaycan bazarları tarixi mənbələrdə**

Azərbaycan şəhərlərinin yaranması və inkişafı tarixi də yuxarıda qeyd olunan şərtlərdən və amillərdən kənar deyildir. Bu baxımdan Cənubi Azərbaycandakı Təbriz, Marağa, Ərdəbil, tarixi Arranda və Şirvandakı Bərdə, Naxçıvan, Qəbələ, Şamaxı, Şəki və s. klassik şəhər mədəniyyətinin və memarlığının ən gözəl nümunələridir. IV əsrdə bu şəhərlər tənəzzülə uğramış və bir neçəsi istisna olmaqla, şəhər mərkəzləri olmaq funksiyasını itirmişlər [Мамедов, 2015, c.60]. Bununla əlaqədar Yakut əl Həməvi yazır: "*Azərbaycan daimi qarışıqlıq və fasiləsiz müharibələr ölkəsidir. Məhz buna görə də şəhərlərin əksəriyyəti dağıdılıb, kəndlər isə xarabalığa çevrilib*" [ад-Хамави, 1983, c.8].

VIII-X əsrlər Azərbaycanda müsəlman şəhərlərinin formalaşması dövrü kimi xarakterizə olunur. Bu dövrdə onlar kiçik istehkam şəhərlərindən iri inzibati, sənətkarlıq, ticarət və mədəniyyət mərkəzlərinə çevrilir, öz xarakterik xüsusiyyətləri və yeni tipli monumental tikililəri ilə ümummüsəlman görkəmi qazanırlar. Yerli müstəqil dövlətlərin yaranması, sənətkarlıq istehsalının yüksəlişi, Xilafətin Volqa-Xəzər marşrutu boyunca şimal ölkələri ilə beynəlxalq tranzit ticarətinin inkişafı, müsəlman dünyasının müxtəlif vilayətləri arasında aktiv iqtisadi və mədəni əlaqələr, İslamdan əvvəlki ənənələrin

transformasiyasının başa çatması və İslamın bərqərar olması - bütün bunlar Azərbaycan müsəlman şəhərinin formalaşmasına müsbət təsir göstərirdi [Достиев, 2025, с.189-190].

Bəzi tədqiqatçılar Orta əsrlərdə şəhərlərin çoxunun əsasən möhkəmləndirilmiş bazarlar və tacirlərin yaşayış məntəqələrindən yarandığını yazmışlar. Tarixçi R.Məmmədov isə hesab edir ki, bu, yanlış yanaşmadır. Onun fikrincə, feodal şəhərinin yaranıb formalaşmasını ticarət deyil, daha çox sənətkarlıq şərtləndirmişdir [Мамедов, 2015, с.60]. Hətta Orta əsrlərdə geniş yayılmış belə bir mülahizəyə görə, sakinlərinin ən azından 32 sənət növü ilə məşğul olan yaşayış məntəqəsi şəhər hesab edilə bilərdi. Başqa bir mülahizəyə görə isə ilk növbədə, Cümə məscidi olan yaşayış məntəqəsini şəhər adlandırmaq olardı [Мамедов, 2015, с.60].

Mövcudluğunun ilk illərində bəzi Azərbaycan şəhərləri, o cümlədən Beyləqan, Şamaxı və Dərbənd daha çox hərbi və inzibati funksiyalar yerinə yetirmişlər [Мурадов, 1984, с.6]. Şəhər sənətkarlığının nisbətən sürətli inkişafı isə bütün ön Asiyada olduğu kimi, XI-XIII əsrlərə təsadüf edir. Bu dövrdə Azərbaycan şəhərləri sənətkarlığın cəmləşdiyi mərkəzlərə çevrilərək [Гейдаров, 1967, с.22-40], əsasən sənətkarlar və ticarətlə məşğul olan əhali qismi ilə məskunlaşır. Lakin bütün bunlar şəhərlərin inkişafında heç də dərhal həlledici amilə çevrilmirdi. Belə ki və onun baş verməsi üçün sənətkarın öz məhsulunu sata biləcəyi bazarların olması lazım idi. Beləliklə, tədricən şəhərlərdə mühüm həyati mərkəzlər - meydanlar, küçələr və bəzən hətta bütöv ticarət rayonları meydana gəlməyə başlayır ki, bu da şəhərlərin memarlıq və planlaşdırma kompozisiyasında əksini tapır. Nəticədə istehsal, ticarət və ictimai mərkəz hesab olunan bazarlar meydana çıxır. Yerli iqlim şəraitinə uyğun olaraq bəzi şəhərlərdə bu cür mərkəzlərdən ayrılan və tağlarla örtülən uzun ticarət küçələri yaranır və onlar Təbriz, Ərdəbil, Bakı və digər şəhərlərin iqtisadiyyatında mühüm rol oynamağa başlayır [Мурадов, 1984, с.7-8].

Mənbə və arxeoloji ədəbiyyatdan məlum olur ki, qədim və Orta əsr Azərbaycan şəhərləri üç hissəli planlaşdırma strukturuna malik olmuşdur: qala, şəhristan və rabad. Onların hər birinin formalaşması hərbi-inzibati, sənətkarlıq-ticarət, mədəni-ideoloji və digər funksiyalarla şərtlənmişdi. Hökmdarın və ya canişinin iqamətgahı qalada (iç qala) yerləşirdi. Burada hökmdarın xidməti otaqları, inzibati binalar, zərbxana və cəzaçəkmə müəssisələrini əhatə edən saray yerləşirdi. Ən monumental ictimai tikililər, mədəniyyət obyektləri və yaşayış binaları, şəhər zadəganlarının, məmurlarının, ruhanilərinin, hərbi qulluqçularının, varlı sənətkarlarının və tacirlərinin yaşadığı şəhristanda yerləşirdi. Şəhristanın ətrafı rabad adlanırdı. Tədqiqatçılar qeyd edirlər ki, Azərbaycan şəhərlərinin memarlıq strukturunda təmsil olunan rabadlar ərəb fəthindən sonrakı dövrdə sənətkarlıq istehsalının və ticarətinin inkişafı, əhalinin artması və şəhristanda həddindən artıq sıxlıq nəticəsində yaranmışdır. Şəhərlər rabadların hesabına böyüyürdü. Rabadda sənətkarlıq emalatxanaları və ticarət mərkəzləri, ətraf ərazilərdə isə şəhər əhalisinin yardımçı tikililəri yerləşirdi [Достиев, 2025, с.190; Мурадов, 1984, с.8]. Ərdəbil, Naxçıvan, Təbriz, Gəncə, Marağa və s. kimi Azərbaycan şəhərləri bazar ticarətinin ta qədimdən inkişaf etdiyi şəhərlər hesab olunur.

Nisbətən iri şəhərlərdə bir yox, bəzən bir neçə bazar olsa da, onlardan yalnız biri "əsas" və ya "böyük bazar" sayılırdı. Əsas bazar bütün bazarlarda məhsulların qiymətlərini müəyyən edirdi. O, adətən şəhər mərkəzində - qala yaxınlığında yerləşir və bir neçə məhəlləni əhatə edirdi. Əsas bazardan əlavə, şəhərlərdə daha kiçik, məhəllə bazarları da var idi. Mənbələr bu cür bazarların Beylaqanda daha çox olduğunu xəbər verir. Kiçik bazarlar isə əsasən məhəllələrdə yerləşir və şəhərin bu hissələrinin sakinlərinə xidmət göstərirdi. Bazarlar adətən hasarlarla əhatə olunur və möhkəmləndirilirdi.

Erkən Orta əsrlər Azərbaycanında böyük, birləşmiş bazarlar da mövcud idi. Bərdədəki "əl-Kürki" və Ərdəbil yaxınlığındakı "Kürsara" bazarları belələrindən idi. "Əl-Kürki" bazarı haqqında X əsrin ərəb müəlliflərinin əsərlərində geniş məlumat vardır. Məsələn, ərəb

müəllifi Əl-İstəxri qeyd edir ki, "Kürdlərin Qapısı" adlanan Bərdə Qapısının yaxınlığında "əl-Kürki" adlı bir bazar vardır və bu, bir fərsəx meydanı böyüklüyündədir. Bazar günlərində insanlar ora toplaşır. Dünyanın hər yerindən, hətta İraqdan da bura axın edirlər. Hindistandan parçalar, Ərəbistandan ətriyyat və digər əşyalar gətirilir. Yəmən, Misir, İraq, Suriya, Xorsan, Orta Asiya və Avropa ölkələrindən tacirlər bu yarmarkalara axın edirlər. Bu bazar Kürsara bazarından daha əhəmiyyətlidir. Bazarın müntəzəm olaraq açıldığı gün də "əl-Kürki" adlanır: Şənbə, Əl-Kürkü günü, birinci gün, ikinci gün və s. [Сведения арабских писателей, 1901, с.9].

Əl-İstəxrinin dediklərini təkrarlayan İbn Havgəl bildirir ki, Bərdənin rusların yürüşləri zamanı böyük dağıntılara məruz qalmasına baxmayaraq, burada çox sayda bazarlar, məscidlər və hamamlar vardır. Daha sonra o, "Kürsara" (və ya "Külsara") bazarında milyonlarla qoyun satıldığını vurğulayaraq qeyd edir ki, *"mən bu bazar və bu yerlər haqqında o qədər şeylər eşitdim ki, onların hamısını yazsam, bu kitaba sığmaz. Amma elə yazdıqlarım da sözügedən bazarı və burada satılan malları təsvir etmək üçün yetərlidir"* [18Сведения арабских географов, 1908, с. 103].

Bu cür məlumatlara digər ərəb müəlliflərində də rast gəlinir. Məsələn, Əl-Müqəddəsi Bərdə şəhəri, onun memarlıq-planlaşdırma quruluşu haqqında belə yazır: "*Bərdə düzənlikdə yerləşən böyük və kvadrat şəkilli əsas şəhərdir. Nəhəng istehkamlara malikdir. Bazarün üstü tentlərlə örtülmüşdür. Bazarın arxasında Cümə məscidi yerləşir. Bərdə bu vilayətin Bağdadıdır. Bir-birindən gözəl evləri bişmiş kərpicdən və gipsdən tikilmişdir. Xoş, gözəl, meyvələrlə zəngin bir şəhər! Cümə məscidinin bəzi sütunları gips və kərpicdən, bəziləri isə taxtadandır*" [Сведения арабских географов, 1908, с. 7-8; 14-15].

Təbriz şəhəri də Orta əsrlər Şərqinin ən böyük və gözəl şəhərlərindən olmuşdur. Qazan xan tərəfindən Təbriz şəhərində tikilmiş məşhur örtülü bazar (çarsu/çarşı) təkcə Azərbaycanın deyil, bütün Şərqin ən nadir memarlıq incilərindən hesab olunur. Bu bazarı bütün təfərrüatı ilə təsvir edən XIV əsrin məşhur səyahətçisi İbn-Bətutə heyranlığını gizlədə bilməyərək, onu "dünyanın ən yaxşı bazarı" adlandırmışdır [İbn Battuta, 2000, s.326-329].

Təbrizdəki digər möhtəşəm örtülü bazar, XV əsrdə Uzun Həsən (1453-1478) tərəfindən tikilmişdir. "Qeysəriyyə" adlanan və böyük bir hissəsi günümüzədək gəlib çatan bu bazar nəhəng ticarət kompleksidir [Мурадов, 1984, с.26].

Səyyahlar yol qeydlərində Şamaxı bazarı haqqında maraqlı məlumatlar vardır. Məsələn, XVII əsrin məşhur alman səyyahı A.Olearinin yazdığına görə, "*şəhərin cənub tərəfində müxtəlif tipli bir neçə örtülü küçəsi olan "Böyük bazar" adlanan bazar var. Burada qızıl, zərxara, yay, ox, qılınc və digər sənətkarlıq məhsulları da daxil olmaqla müxtəlif mallar satan köşklər yerləşir... Bazarda həmçinin ayrı-ayrı keçidləri və otaqları olan iki "qonaq evi" mövcuddur. Onlardan biri "Şah karvansarayı" adlanır. Burada qalan ruslar qalay, mis, neft və samur (соболями) ticarəti ilə məşğul olurlar. Digəri isə "Ləzgi karvansarayı" adlanır*" [Олеарий, 1906, с.462].

Orta əsr bazarlarında müxtəlif məhsulların satışını həyata keçirən köşklər – dükanlar olurdu: baqqallar, zərgərlər, dəmirçilər, meyvə satıcıları və s. Dükanların sayı bazarın ölçüsündən, tacir və sənətkarların sayından asılı idi. Köşklər (dükanlar) adətən bişməmiş kərpicdən (çiy kərpic) tikilir və üstü kiçik günbəzlə örtülürdü. Dükan isə iki hissədən (dükan – "iki hissə" mənasını verir) ibarət olurdu. Dükan sahibi bir qayda olaraq, ön hissədə otururdu. Mal nümunələri də burada, malların özü isə arxa hissədə saxlanılırdı. Bəzən sənətkarlıq emalatxanaları da dükan funksiyasını yerinə yetirirdi [Мамедов, 2015, с.232-233].

Geniş həcmli topdansatış ticarəti daha çox *karvansara* adlanan və adətən ikimərtəbəli tikilən xüsusi binalarda da aparılırdı. Karvansara eyni zamanda şəhərə gələn və şəhərdən kənar tacirlər üçün mehmanxana və malların saxlanıldığı anbar kimi xidmət edirdi. Bəzən böyük şəhərlərdə bir deyil, bir neçə karvansara olurdu. Müəyyən növ mallar üzrə ticarət

aparan ixtisaslaşmış karvansaralar, həmçinin "milli" mənsubiyyəti xarakterizə edən karvansaralar da var idi. Təbrizdəki "Gürcü karvansaraları", Bakıdakı "Multani" (hind) karvansarayı buna misal ola bilər.

XVIII-XIX əsrin əvvəllərində bütün Yaxın və Orta Şərq ölkələrində olduğu kimi, Azərbaycanda da ticarət əsas etibarilə şəhərlərdə aparılırdı. Lakin o zaman ölkə vahid dövlət halında olmadığı üçün, onun vahid iqtisadi mərkəzi də yox idi. Belə olan halda isə təmərgüzləşmiş yeganə bazar haqqında danışmağa də dəyməz [Əliyev, 1964, s.31].

Buna rəğmən, bazarlar və bazar infrastrukturu bu dövrdə də Azərbaycan şəhərlərinin memarlıq strukturunda mühüm yer tutmaqda davam edirdi. Dövrə aid mənbə və ədəbiyyatda bir sıra Azərbaycan bazarlarının quruluşu və iş rejimi haqqında geniş məlumatlar mövcuddur. Məsələn, tarixçi F.Əliyev mənbələrə istinadən qeyd edir ki, İsfahan da daxil olmaqla, bütün İranda ən böyük və zəngin bazar Təbrizin bazarı sayılırdı. Bu şəhərdə 15 min dükan vardır. Təbriz bazarı "Qeysəriyyə", yəni "şah bazarı" adlanırdı [Əliyev, 1964, s.43].

Tanınmış səyyah A.Filip isə Gəncə bazarını belə təsvir etmişdir: "*Şəhərin (Gəncənin) mərkəzindəki bazar mənim Şərqdə gördüyüm bütün bazarlar arasında ən yaraşıqlısı və böyüyüdür*" [Əliyev, 1964, s.47].

1832-ci ilə aid bəzi arxiv sənədləri Bakının ticarəti haqqında geniş təsəvvür yaradır. Həmin sənədlər bəhs edilən dövrdə şəhərdə 500 ayrıca dükanın, nəzdindəki 207 dükanla birlikdə 9 karvansaranın olduğu bildirilir. XIX əsrin əvvəllərində Bakı xanlığında quru yolla ticarət üçün 470 dəvə və təqribən 3000 atın olduğu xəbər verilir ki, bu da karvanlar vasitəsilə şəhərə xeyli həcmdə mal daşınmasına işarə edir [Aşurbəyli, 2006, c.307]. Eyni zamanda, şəhərin bazarlarında gətirilmə mallarla yanaşı, neft, zəfəran, duz, toxunma parçalar, xalaç-palaz, bez və s. kimi yerli mallar da mühüm yer tuturdu.

Bakı bazarları haqqında məlumatlara Azərbaycana səfər etmiş əcnəbi səyyahların yol qeydlərində də rast gəlinir. Məsələn, A.Düma qeyd edir ki, "...Orada fərqli bir cazibə vardır. İran ipək parçaları, türk məxmərləri, Qarabağ xalçaları, Lənkəran yastıqları, gürcü tikmələri, erməni epançaları (епанчи), Tiflis hörükləri və Allah bilir, başqa nələr -nələr var – insanı cəlb edir, ovsunlayır və valeh edir" [Дюма, 1988, с.254-255].

Bakı bazarının qaynar ticarət həyatından bəhs edən başqa bir mənbədə isə qeyd edilir ki, *"...Orada yalnız yerlilər deyil, Dağıstan sakinləri, dağlılar, salyanlılar ticarət aparırlar. Bakıda həmişə tatarlara (azərbaycanlılara – Ş.İ.), iranlılara, ruslara və ermənilərə rast gəlmək olar. Tiflis istisna olmaqla, Qafqazda heç bir şəhər Bakı qədər böyük bir bazara və ya müxtəlifliyə malik deyil"* [Обозрение, 1836, ч.4, с.63-64].

XIX əsr Bakısının və şəhər əhalisinin gündəlik məişətinin təsvirini verən verən tanınmış teatr xadimi H.Sarabskinin (1879-1945) bazarlar haqqında fikirləri də diqqəti cəlb edir: "*İçərişəhərdə Cümə məscidinin qabağından başlayıb Qız qalasının yanından bir ucu Qoşa qala qapısına tərəf gedən küçəyə, o biri ucu isə Qız qalası tərəfdən dəniz kənarına çıxan küçəyə doğru uzanmış bazar vardı. Buradakı dükanların çox hissəsi, xüsusilə Qız qalasından Cümə məscidinədək olan dükanlar Üstüörtülü bazar idi. Qapıları yan tərəfə deyil, aşağıdan yuxarıya qaldırılmaqla açılardı. Belə qapılara xəfəng deyərdilər. Bazar iki hissəyə bölünürdü: Cümə məscidinin ətrafında olan hissə Aşağıbazar, Qız qalası yanında olan hissə Yuxarıbazar adlanırdı. Yuxarıbazara "Üstüörtülü bazar" da deyərdilər. Onun yalnız bir hissəsi örtülü sahəni tuturdu. O, Qız qalası yanından Çuxur karvansarayadək olan hissə idi. Dükanlar qarşı-qarşıya, iki cərgə olub üstüörtülü bir bina içinə sığışdırılmışdı. ...Aşağıbazarda xırda alışverişçilər, baqqallar, dərzi və papaqçılar, Yuxarıbazarda isə bəzzazlar, xalçaçılar yerləşmişdilər*" [Sarabski, 2006, s.14-15].

Nuxa (Şəki) bazarını böyük heyranlıqla təsvir edən A.Düma yazır ki, Nuxa bazarı Dərbənd və Bakı bazarları ilə birlikdə indiyə qədər gördüyüm ən möhtəşəm üç bazardan biridir. Hətta Tiflis bazarı bir çox cəhətdən bunlardan aşağı səviyyədədir. Burada cürbəcür

xalçalar, silahlar, yəhərlər, patron kəmərləri, yastıqlar, süfrələr, papaqlar, çərkəzi papaqlar, dağlı ayaqqabılarından tutmuş gürcü çəkmələrinə qədər hər cür ayaqqabı düzəldib satırlar. Onlar bir, iki və üç sıra tatar sikkələri olan üzüklər, bilərziklər, boyunbağılar düzəldib satırlar [Дюма, 1988, с.328-329]. Bu cür məlumatlar Naxçıvan, Ordubad, Lənkəran və digər tarixi şəhər bazarları haqqında da mövcuddur.

Burada bir vacib məqamı qeyd etmək lazımdır ki, istər Orta əsrlərdə, istərsə də XIX əsrdə bazarlar təkcə alış-veriş, alqı-satqı və mübadilə yeri deyil, həm də şəhərin və şəhər əhalisinin ən mühüm problemlərinin, ictimai və məişət həyatına aid olan məsələlərin müzakirə və həll edildiyi, müxtəlif problemlərlə bağlı qərarların qəbul edildiyi bir məkan olmuşdur. Şəhərin nəbzi məhz burada vururdu [Babayev & Şahbazov, 2017, s.100]. Əhalinin kişi qisminin əksəriyyəti günün çox hissəsini orada keçirirdi. Şəhərdə və ölkədə baş verən son siyasi hadisələr haqqında orada xəbər tutur, xüsusi carçılar şahın, sultanın və digər məmurların fərmanlarını orada elan edirdilər.

Bazarlardakı iş rejimi də maraq doğuran məsələlərdəndir. Mənbənin yazdığına görə, "*bütün yerli tacirlər və sənətkarlar günlərini bazarlarda keçirirdilər. Burada gün çıxandan gün batana qədər həyat qaynayırdı. Yay aylarında bazar daha tez açılırdı. Qaş qaralanda isə bağalanırdı. Bazar darğasının çarcıları hamıya bazarın bağlanılması xəbərini verirdilər. Bu vaxt bazarda hamı əl-ayağa düşür və dükanını bağlamağa tələsirdi. Çarçılardan yarım saat sonra bazarın darvazaları bağlanır və burada yalnız keşikçilər və itlər qalırdı*" [Современная Персия, 1887, с.228].

Məşhur rus rəssamı və səyyahı V.V.Vereşşagin də qeyd edir ki, "Şərqdə bazarlar özlərinin ticarət əhəmiyyətindən başqa, cəmiyyətin gündəlik həyatında olduqca mühüm rol oynayırdı. Onlar az qala ən vacib, həyati məsələlərin müzakirə olunduğu və ən yeni siyasi xəbərlərin verildiyi yığıncaqları, yaxud da parlamentləri əvəz edirdi [Верещагин, 1870, с.263]. Bütün bunlar da onu iqtisadi sistemdə müstəqil bir alt sistem kimi nəzərdən keçirməyə imkan verir.

Bazarların şəhər fenomeninin əsas komponentlərindən biri olması faktını, xalq arasında şəhər küçələrinin və məhəllərinin bir çoxunun bazarların və və ya sənət sahələrinin adları ilə adlandırılması faktı da təsdiq edir. Azərbaycan şəhərlərinin bir çoxunda həmin adlar günümüzədək gəlib çatmışdır. Bakıdakı "Toyuqçu bazarı" (Qarayev küçəsi), "Qəssab bazarı" (Yefimov Saratovtsev küçəsi), "Balıqçı bazarı" (Nizami küçəsinin bir hissəsi), "Xarrat bazarı" (Ostrovski küçəsi), "Misgər palanı" (Həzi Aslanov küçəsi), "Güzgüçülər palanı" (Montin küçəsi), "Gön satan - dabbaq palanı" (Bir may küçəsi), "Zərgər palanı" (Qasım İsmayılov küçəsi), "Başmaqçı palanı" (Vidadi küçəsi), "Səbzə bazarı" və s. dediklərimizə misal ola bilər [Süleymanov, 1987, s.31]. İçərişəhərdə və onun ətrafında bir neçə məşhur bazar var idi. Onların ən qədimi Nikolayevski bazarı (Örtülü Passaj bazarı), "Quba bazarı" (Kubinka - indiki Füzuli meydanı), eləcə də kömür satılan və sənətkarların "Kömür meydanı" və ya "Kömürçü bazar"ı idi.

Gəncədədəki Zərrabi, Əttarlar, Misgərlər, Dəmirçilər, Dulusçular, Şərbaflar, Boyaqçılar və s. məhəllələri də keçmişdə bazar – qızğın alış-veriş məkanları olmuşdur.

Nəhayət, tarixən bazarlarda mövcud olan sosial, iqtisadi, ictimai və insani münasibətlər, riayət olunan yazılmamış qanunlar və s. zaman-zaman folklorun ayrı-ayrı janrlarında – atalar sözlərində, deyimlərdə, aforizmlərdə, nağıl və dastanlarda öz geniş əksini tapmışdır ki, bu da bazar mühiti, onun xalqın gündəlik məişətindəki yeri və rolunu əyani şəkildə açıb göstərməkdədir. Məsələn, "Ağıllı fikirləşincə, dəlinin oğlu bazara gedər", "Bazarın bazar, qadam sənə mərdumazar", "Ədəb bazarda satılmaz", "Örtülü bazar, dostluğu pozar", "Bazar bazara irməz", "Bazar çörəyi çox olsun, bazarda olsun", "Bazar içində it qulağı kəsmək olmaz", "Bazar köpəyi sürü gözləməz", "Bazar quruldu, hesab duruldu", "Bazar şeytan evidir", "Bazar yansın, amma mənə bir manat qazanc olsun", "Bazara gedər – yağış yağar,

dəyirmana gedər – qırğın olar", "Bazara pulsuz gedən, göra imansuz gedər", "Bazarda bez ucuz olanda adam özünü öldürməz", "Bazarı oğruya tapşır" və s.

**3.Nəticə**

Beləliklə, deyilənlərdən aydın olur ki, bazarlar şəhər fenomeninin vacib komponentlərindən biri olaraq, bütün dövrlərdə onun sosial-iqtisadi və mədəni inkişafında mühüm rol oynamış, şəhərlə kənd və ayrı-ayrı bölgələr arasında bir növ əlaqələndirici funksiya yerinə yetirmişdir. Bazarlar təkcə kənd təsərrüfatı və sənətkarlıq məhsullarının ticarəti üçün məkan təmin etməmiş, eyni zamanda pul dövriyyəsinin genişlənməsinə təkan vermiş, sənət istehsalını və məhsul müxtəlifliyini stimullaşdırmış, o cümlədən, sosial-mədəni münasibətlərin və ünsiyyətin (xəbərləşmə, söhbət, fikir mübadiləsi və s.) cilalandığı məkan rolunda çıxış etmişlər.

Bundan əlavə, bazar daxilində və bazarlar arasında yaranan rəqabət, istər-istəməz istehsalçıları məhsulun keyfiyyətini artırmağa və çeşidini genişləndirməyə sövq etməklə, daha bir mühüm rol icra etmişlər. Nəhayət, bazarlar yarmarkalarla, xüsusən də böyük yarmarkalarla yanaşı, iqtisadiyyatın lokal, qapalı xarakterini aradan götürmüş, beynəlxalq ticarət üçün əlverişli platformanı təmin etmiş və bununla da təbii olaraq mürəkkəb şəhər orqanizminin ən vacib atributlarından birinə çevrilmişlər.

**4.REFERENCES**

1. Ashurbayli, S. (2006). *History of the city of Baku* Baku: Avrasiya Press, 416 p. (in Azerbaijani)
2. Sarabski, H. (2006). *Old Baku*. Baku: Sherq-Qerb, 144 p. (in Azerbaijani)
3. Aliyev, F. (1964). *Trade in Azerbaijan in the first half of the 18th century*. Baku: Azer SSR Academy of Sciences Publishing, 122 p. (in Azerbaijani)
4. Babayev, T., & Shahbazov, T. (2017). *Basqal: A historical-ethnographic study*. Baku: Science Development Fund under the President of the Republic of Azerbaijan, 344 p. (in Azerbaijani)
5. Suleymanov, M. (1987). *What I heard, read, and saw*. Baku: Azerneshr, 320 p. (in Azerbaijani)
6. Babyukh, A., & Kaisarova, Zh. (2014). The concepts of "city" and typology of cities: correlation problems in determining the date of origin of urban settlements. *Bulletin of Kazan Technological University, 17*(20), 417–422. (in Russian)
7. Weber, M. (2017). *The city*. Moscow: Strelka Press, 252 p. (in Russian)
8. Vereshchagin, V. (1870). Journey through Transcaucasia in 1864–1865. *World Traveller*, 7, 209–305. Moscow. (in Russian)
9. Geydarov, M. (1967). *Craft production in the cities of Azerbaijan in the 17th century*. Baku, 500 p. (in Russian)
10. Dostiev, T. (2025). Dynamics of medieval urbanization in Azerbaijan in the 9th–17th centuries. *Volga Archaeology*, 1(51), 189–198. (in Russian)
11. Dumas, A. (1988). *The Caucasus*. Tbilisi: Merani, 647 p. (in Russian)
12. Yaqut al-Hamawi. (1983). *Mu'jam al-buldan* (information on Azerbaijan). Trans. Z. M. Bunyatov & P. K. Juzé. In: Hamdallah Qazvini. *Nuzhat al-qulub* (materials on Azerbaijan). Baku, 65 p. (in Russian)
13. Mamedov, R. (2015). *Cities of Northern Azerbaijan in the 7th–14th centuries: socio-economic and cultural history*. Baku: Elm ve Tekhsil, 480 p. (in Russian)
14. Muradov, V. (1984). *Urban planning in Azerbaijan in the 13th–16th centuries*. Baku: Elm, 132 p. (in Russian)
15. *Overview of Russian possessions beyond the Caucasus: statistical, ethnographic, topographic and financial data…* (1836). Saint Petersburg: Department of Foreign Trade Printing, Vol. 3, 392 p. (in Russian)

16. Olearius, A. (1906). *Description of a journey to Muscovy and through Muscovy to Persia and back.* Saint Petersburg: A. S. Suvorin Publishing, 582 p. (in Russian)
17. *Information of Arab writers about the Caucasus, Armenia and Azerbaijan.* (1901). *SMOMPK*, 29, 1–73. Tiflis: Printing House of the Office of the Civil Governor-General of the Caucasus and K. Kozlovsky. (in Russian)
18. *Information of Arab geographers of the 9th–10th centuries A.D. about the Caucasus, Armenia and Azerbaijan.* (1908). *SMOMPK*, 38, 1–130. Tiflis: Printing House of the Office of the Civil Governor-General of the Caucasus and K. Kozlovsky. (in Russian; Arabic sources)
19. *Modern Persia: images of Persian life and character by Dr. Wills* (trans. I. Korostovtsev). (1887). Saint Petersburg, 279 p. (in Russian)
20. *The Travels of Ibn Battuta* (2000). (Vol. 1). Trans., notes and study by A. Sait Aykut. Istanbul: Omo, 580 p. (in Turkish translation from Arabic)
21. Mumford, L. (1938). *The culture of the city*. New York: Harcourt, Brace & Co., 586 p. (in English)

## ƏDƏBİYYAT

1. Aşurbəyli, S. (2006). *Bakı şəhərinin tarixi*. Bakı: Avrasiya Press, 416 s.
2. Sarabski, H. (2006). *Köhnə Bakı*. Bakı: Şərq-Qərb, 144 s.
3. Əliyev, F. (1964). *XVIII əsrin birinci yarısında Azərbaycanda ticarət*. Bakı: Azər SSR EA nəşri, 122 s.
4. Babayev, T., & Şahbazov, T. (2017). *Basqal. Tarixi-etnoqrafik tədqiqat*. Bakı: Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu, 344 s.
5. Süleymanov, M. (1987). *Eşitdiklərim, oxuduqlarım, gördüklərim*. Bakı: Azərnəşr, 320 s.
6. Бабюх, А., & Кайсарова, Ж. (2014). Понятия «город» и типологизация городов: проблемы соотношения при определении даты возникновения городских поселений. *Вестник Казанского технологического университета*, *17*(20), 417–422.
7. Вебер, М. (2017). *Город*. Москва: Strelka Press, 252 s.
8. Верещагин, В. (1870). Путешествие по Закавказью в 1864–1865 гг. *Всемирный путешественник*, Т. VII. Москва, 209–305.
9. Гейдаров, М. (1967). *Ремесленное производство в городах Азербайджана XVII в.* Баку, 500 s.
10. Достиев, Т. (2025). Динамика средневековой урбанизации Азербайджана в IX–XVII вв. *Поволжская археология*, (1)51, 189–198.
11. Дюма, А. (1988). *Кавказ*. Тбилиси: Мерани, 647 s.
12. Йакут ал-Хамави (1983). *Муджам ал-Булдан (сведения об Азербайджане).* Пер. З. М. Буниятова, П. К. Жузе. В: Хамдаллах Казвини. *Нузхат ал-Кулуб (материалы по Азербайджане).* Баку, 65 s.
13. Мамедов, Р. (2015). *Города Северного Азербайджана VII–XIV вв. (социально-экономическая и культурная история).* Баку: Елм ве Техсил, 480 s.
14. Мурадов, В. (1984). *Градостроительство Азербайджана XIII–XVI вв.* Баку: Элм, 132 s.
15. *Обозрение российских владений за Кавказом, в статистическом, этнографическом, топографическом и финансовом отношениях, произведенное и изданное по высочайшему соизволению (ОРВЗК)* (1836). Санкт-Петербург: Тип. Деп. внеш. торг.; ч. 3, 392 s.
16. Олеарий, А. (1906). *Описание путешествия в Московию и через Московию в Персию и обратно.* Санкт-Петербург: Изд. А. С. Суворина; 582 s.

**17.** *Сведения арабских писателей о Кавказе, Армении и Адербейджане.* (1901). *СМОМПК*, вып. 29. Тифлис: Тип. Канцелярия Главноначальствующего гражд. частью на Кавказа и К. Козловскаго; отд. I, 1–73.
**18.** *Сведения арабских географов IX и X веков по Р.Хр. о Кавказе, Армении и Адербейджане.* (1908). *СМОМПК*, вып. 38. Тифлис: Тип. Канцелярия Главноначальствующего гражд. частью на Кавказа и К. Козловскаго; отд. I, 1–130.
**19.** *Современная Персия. Картинки современной персидской жизни и характера, доктора Уильса* (пер. И. Коростовцев). (1887). Санкт-Петербург, 279 s.
**20.** *İbn Battuta Seyahetnamesi* (2000). (I cilt). Çev., inceleme ve notlar: A. Sait Aykut. İstanbul: Omo, 580 s.
**21.** Mumford, L. (1938). *The culture of the city*. New York: Harcourt, Brace & Co., 586 p.